# ÖZÜNÜ QİÇS-dən QORU!

(+994 12) 498 00 92
(+994 12) 493 58 72
office@family.gov.az
Ü.Hacıbəyli 80, Hökumət Evi, IV Qapı

www.family.gov.az

@aileqadinusaq

Azərbaycan Respublikası
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

# İİV/QİÇS

## HAQQINDA HƏQİQƏTİ BİL,

## ÖZÜNÜ VƏ YAXINLARINI QORU!

# BUNLARI BİLMƏK VACİBDİR!

## İİV nədir?

İİV (İnsanın İmmunçatışmazlığı Virusu) – yoluxma nəticəsində immun sisteminin getdikcə artan zədələnməsi ilə səciyyələnən xroniki infeksion xəstəlikdir.

## QİÇS nədir?

QİÇS (Qazanılmış İmmunçatışmazlığı Sindromu) – İİV infeksiyasının sonuncu və ən ağır mərhələsidir. Bu mərhələdə immun sisteminin zəifləməsi nəticəsində bədənin infeksiyalarla mübarizə aparma qabiliyyəti itir. İİV- ləng infeksiyalara aiddir. İnsan orqanizmində uzun illər heç bir əlamət göstərmədən daşına bilər. Yoluxma anından xəstəliyin əlamətlərinin özünü göstərməsinə qədər 8-15 il keçə bilər.
Virus daşıyıcıları xəstəliyin bütün mərhələlərində başqalarını yoluxdura bilər. Buna görə erkən diaqnoz həm müalicəyə vaxtında başlamaq, həm də başqalarını qorumaq üçün çox vacibdir.

## Virusa necə yoluxmaq olur?

- qeyri-steril iynə və şprislərdən istifadə etdikdə
- yoxlanılmamış qan köçürülməsi zamanı
- manikür, tatuaj, pirsinq edərkən qeyri-steril ləvazimatlardan istifadə zamanı
- qan qalıqları olan alət ilə (üz qırxan, qayçı, diş fırçası və s.) dərinin və selikli qişalarının zədələnməsi zamanı
- qorunmamış cinsi əlaqə zamanı
- hamiləlik, doğuş və döşlə əmizdirmə zamanı

## Virus hansı hallarda ötürülmür?

- əl sıxmaq, qucaqlaşmaq və öpüşmək (əgər ağız boşluğunda yara yoxdursa)
- eyni qab-qacaqdan və ya dəsmaldan istifadə etmək
- asqırmaq və ya öskürmək
- eyni hovuz və ya sanitar qovşağından istifadə etmək
- ağcaqanad və ya digər həşərat sancmaları nəticəsində

## Sağlam həyat sənin seçimindir: test ver, əmin ol!

### Müalicə mümkündürmü?

İİV/QİÇS infeksiyasına qarşı tam müalicə mövcud deyil. Lakin Antiretrovirus Terapiyası (ART) qanda virus yükünün miqdarını əhəmiyyətli dərəcədə azaldır və QİÇS-in qarşısını alır.

Vacib qeyd: İİV/QİÇS artıq "ölüm hökmü" deyil. Dərmanlarını vaxtında qəbul edən İİV-li şəxslər uzun, sağlam ömür sürə və sağlam övlad dünyaya gətirə bilərlər. Bir cütlükdə İİV-müsbət partnyor ART qəbul edərsə, virus yükü müəyyən edilə bilməyən səviyyəyə endikdə, İİV-in mənfi partnyora cinsi yolla ötürülmə ehtimalı yoxdur.

## Virusa yoluxmaqla bağlı şübhələr sizi narahat edirsə:

- bu halda test etməyiniz həyati vacib addımdır
- İİV testi anonim aparılır
- test nəticəniz müsbətdirsə, nə qədər tez tibbi yardım alsanız, o qədər yaxşıdır

**Məlumatlı ol, sağlam qal!** *Daha ətraflı məlumat üçün Səhiyyə Nazirliyi Respublika QİÇS-lə Mübarizə Mərkəzinə və ya onun regional laboratoriyalarına müraciət edin.*

**Ünvan: Bakı ş., Mir-Qasımov küç. 1/8**
**Əlaqə nömrəsi: (012) 510 08 69**